## FİLOLOGİYA

https://doi.org/10.59849/3006-1342.2026.2.136
UOT 80

*Sənubər Sabir qızı Abdinova*
*AMEA Gəncə Bölməsi Humanitar Tədqiqatlar İnstitutunun*
*Elmi işçi*
*E-mail: abdinovasenuber70@gmail.com*
*Güləndam Allahverdi qızı İsmayılova*
*AMEA Gəncə Bölməsi Humanitar Tədqiqatlar İnstitutunun*
*Böyük laborant*
*E-mail: gulandam.ismailova.77@mail.ru*

# QƏTRAN TƏBRİZİ YARADICILIĞINDA VƏTƏN VƏ MƏKAN ANLAYIŞI

*Məqalədə XI əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olan Qətran Təbrizi yaradıcılığında vətən və məkan anlayışı bədii ifadə xüsusiyyətləri ilə araşdırılır. Şairin qəsidələri əsasında vətən anlayışının yalnız coğrafi məkan deyil, həm də mənəvi bağlılıq, doğmalıq və mədəni kimlik ifadəsi olduğu göstərilir. Qətran Təbrizi doğma yurdu Təbrizə və yaşadığı mühitə xüsusi sevgi ilə yanaşmış, şəhərlərin gözəlliyini, abadlığını və mədəni əhəmiyyətini poetik dildə təsvir etmişdir. Şairin əsərlərində Təbriz və Gəncə kimi şəhərlərin təsvirinə xüsusi diqqət yetirilmişdir. Qətran Təbrizi bu şəhərləri gözəllik, inkişaf nümunəsi və doğma mühit kimi təqdim etmişdir. Eyni zamanda şair məkan təsvirləri vasitəsilə yaşadığı dövrün ictimai və mədəni həyatını da əks etdirmişdir. Belə qənaətə gəlinmişdir ki, vətən və məkan anlayışı Qətran Təbrizi yaradıcılığının mühüm mövzularından biridir. Şair doğma yurduna bağlılığını, Gəncə və Təbriz şəhərlərini yaşayış yeri kimi deyil, mənəvi dəyər daşıyan məkanlar kimi təqdim etmişdir.*

*Açar sözlər:* Azərbaycan ədəbiyyatı, ədəbi-mədəni mühit, vətən və məkan, Gəncə, Təbriz

Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı Şərq ədəbi-mədəni mühitinin ayrılmaz tərkib hissəsi kimi formalaşmış və inkişaf etmişdir. Bu ədəbiyyat həm yerli ənənələrə, həm də ərəb və fars ədəbi təsirlərinə əsaslanaraq zəngin poetik bir sistem yaratmışdır. XI-XII əsrlər Azərbaycan ədəbiyyatının yüksəliş dövrü hesab olunur. Bu dövrdə poeziya əsasən saray mühitində inkişaf etmiş və qəsidə, qəzəl, mədh kimi janrlar geniş yayılmışdır. “Azərbaycan poeziya məktəbi” adı ilə məşhur olan bir dövr ədəbiyyatının formalaşması və inkişafını Qətran Təbrizi, Məhsəti Gəncəvi, Xaqani Şirvani, Fələki Şirvani və nəhayət, Nizami Gəncəvi kimi klassiklər müəyyən etmişlər.

Qədim Azərbaycan ədəbiyyatının əsas xüsusiyyətlərindən biri onun müxtəlif mədəniyyətlərin təsiri altında formalaşması olmuşdur. Bu dövrdə yaşamış şairlər əsərlərini əsasən fars dilində yazmışdır. Lakin buna baxmayaraq onların yaradıcılığı Azərbaycan ədəbi-mühitinin bir hissəsi hesab olunur, desək yanılmarıq [1, s. 6].

Həmin dövrdə qəsidə janrı xüsusi əhəmiyyət daşıyırdı. Şairlər qəsidələr vasitəsilə hökmdarları tərif edir, onların hakim olduqları torpaqları və şəhərləri yüksək bədii ifadələrlə təsvir edirdilər. Bu səbəbdən də ədəbiyyatda məkan anlayışı, yəni şəhər, diyar və torpaq təsvirləri mühüm yer tuturdu.

XI əsrdə yaşamış klassik Azərbaycan ədəbiyyatında mühüm yer tutmuş şairlərdən biri də Qətran Təbrizidir. Qətran Təbrizi yaradıcılığı ilə Azərbaycan poeziya məktəbi yeni inkişaf

mərhələsinə qədəm qoymuşdur. Bu mütəfəkkir şair farsdilli Azərbaycan poeziyasının ilk görkəmli nümayəndəsi sayılır [1, s. 7].

Qətran Təbrizi 1012-ci ildə Təbriz yaxınlığındakı Şadiabad kəndində anadan olmuşdur. Uşaqlığını kəndin əlvan təbiəti içərisində keçirən şair vətənə, onun təbiətinə, gülünə, çiçəyinə, bağlarına burda vurğun olmuşdur. Tədqiqatçıların fikrinə görə şairlik istedadı artıq Təbrizdə olarkən özünü büruzə verən Qətran qüdrətli bir şair kimi əvvəlcə Gəncədə parlamışdır. Onun Gəncəyə gəlişi Aran hökmdarı Əbülhəsn Əli Ləşkərinin hakimiyyəti illərinə düşür. Bir çox qəsidələrində, xüsusən Aran dövlətinin sərkərdəsi olan Əbülyəsrə yazdığı məktubundan anlaşılır ki, artıq Ləşkərinin sağlığında (1033-1050- Gəncə) Gəncəni tərk edir. Bu məktubda göstərilir ki, şair Gəncədə olarkən Əbülyəsr onu Ləşkəriyə təqdim etmiş, Ləşkərinin sarayında Qətran böyük hörmət və şöhrət qazanmışdır.

Qətran Təbrizi klassik Şərq poeziyasının ənənələrinə uyğun olaraq əsasən qəsidə janrında yazmışdır. Onun yaradıcılığı “Divan” adlı lirik şeirlər toplusundan və “Ət-təfasir” adlı fars dilinin izahlı lüğətinə həsr olunmuş elmi əsərdən ibarətdir. Şairin yaradıcılığında hökmdarların tərifi, ictimai hadisələrin əksi, şəhər və məkan təsvirləri mühüm yer tutur.Qeyd etdiyimiz kimi, Qətran Təbrizinin əsərlərində “vətən” anlayışı bir başa ifadə olunmur. Lakin o, şəhərləri və torpaqları tərif etməklə vətənə bağlılığını göstərir. Bu mövzu onun yaradıcılığında doğma məkan, mədəni mühit və idarəetmə quruluşu kimi təqdim olunur. Klassik Şərq poeziyasında vətən anlayışı daha çox yaşanılan və idarə olunan məkan kimi başa düşülürdü. Şairlərin qəsidələrində şəhər və məkan təsvirləri çox vaxt hökmdarların qüdrətini göstərmək üçün istifadə olunurdu.

Q.Təbrizin hökmdar Əbülhəsən Əli Ləşkəriyə yazdığı şeirdə belə deyir:

İstər sənin yanında olum, istər başqa şahların yanında,
Mən sənin fədainəm, bununla da fəxr edirəm.
Nə qədər ki, bulud tutuqunluq nişanəsidir,
Nə qədər ki, günəş parlaqlıq ələmətidir,
Həmişə qaranlıq düşmənləri nişanə etsin,
Həmişə işıq dostlarına öz təsirini göstərsin [5, s. 110].

Bu beytlərdə şair hökmdarı mədh edir və ona öz sədaqətini bildirir. “Mən sənin fədainəm” fikri onun Gəncə hökmdarına bağlılığını və ona xidmət etməyi şərəf hesab etdiyini göstərir. Bu da həm hökmdara hörmətin, həm də Gəncə sarayı ilə mənəvi yaxınlığın ifadəsidir. Digər tərəfdən, hökmdara sədaqət bildirən bu misralar vətən anlayışı ilə də bağlıdır. Belə ki, orta əsr şeirində hökmdara bağlılıq çox vaxt ölkəyə, şəhərə və yaşanılan mühitə bağlılıq kimi qəbul edilirdi. Q.Təbrizinin işlətdiyi ifadələr eyni zamanda Gəncə mühitinə və siyasi-mədəni məkana sadiqliyin ifadəsidir. Bu məsnəvi məktub kimi yazıldığından burada o zaman ki Təbriz rəvvadilərinin, Gəncə şəddadilərinin sarayında olan əyan və əşrəfin adları, onların məşğuliyyəti də göstərilir. Bu əsərdə hakimiyyətdə olan başqa əmrlərin adı da çəkilir. Şairin Gəncə dostlarından istedadlı şairlər Əbülmüəmmər, Əbüləla və başqaları xatırlanır [2, s. 330]. Şairin qəsidələrinin çoxu təbiət gözəlliklərinin tərənnümünə həsr edilmiş “Bahariyyə”lərdir. Burada Azərbaycan təbiətinin rəngarəngliyi, Təbrizin, Gəncənin bir sözlə şairin gəzdiyi, gördüyü və yaşadığı doğma ellərin füsunkarlığı yüksək sənətkarlıqla qələmə alınır. Şair sadəcə təbiət təsviri yaratmır, onun gözəlliklərini canlandırır:

Aşıq öz sevgilisi qarşısında necə nailə edirsə,
Bülbül də gülün qarşısında elə fəryad edir.
Nərgiz yarımyuxulu gözlərini açıb çəmənə tərəf boylanır.
Elə bil aşiq oğrun-oğrun öz sevgilisinə baxır [2, s.331].

Başqa bir beytdə Qətran Təbrizi Gəncə mühitinə bağlılığını açıq şəkildə göstərir. O, baharın gəlişini, bağların gözəlliyini, tarlalarının yaşıllığını və təbiətin rəngarəngliyini təsvir etməklə Gəncənin gözəl və abad bir məkan olduğunu vurğulayır. Ümumiyyətlə, Q.Təbrizi öz yaradıcılığında təbiət təsvirlərini çox heyranlıqla və incə şəkildə vəsf etmişdir. Professor X.Yusifli qeyd edir ki, "Rəngarəng təbiət təsvirləri Q.Təbrizi poeziyasının canıdır" [4, s. 83].

Novruz küləyi yenədə gülüstanı bəzəyir, istəyir ki,
Öz naxışlarını Çin naxışlarına bənzətsin.
Tarlalara hər zaman minadan yaşıl köynək geydirir,
Budaqlara hər zaman mərcandan qırmızı bəzək vurur.
Buludun acığına yel də laləzara gəlib
Bulud ağladan laləni bir daha güldürməyə çalışır.
Zəmanə dağ-dərəyə Səna xələti verdi.
Hava bağ-bağçanı cənnət bağına döndərdi.
Gözəllərin hicran gecəsi kimi gündüz uzanır,
Sənəmlərin vüsal gecəsi tək gecə qısalır [5, s. 92].

Şairin Gəncəni sevməsinin əsas sübutlarından biri şəhərin təbiətini böyük məhəbbətlə sevməsidir. O, Gəncənin bağlarını cənnət bağlarına bənzədir, çiçəkləri buludları, bahar yellərini, xüsusən Novruz bayramı ərəfəsində təbiətin oyanışını şairanə tərzdə təsvir edir. Belə təsvirlər göstərir ki, Gəncə şair üçün sadəcə yaşadığı şəhər deyil, ilham aldığı və qəlbən bağlandığı bir məkan olmuşdur. Burada vətən anlayışı Gəncənin təbiəti, gözəlliyi, saray mühiti və şairin mənəvi bağlılığı ilə birlikdə təqdim olunur.

Məşhur alim və tarixçi Seyid Əhməd Kəsrəvi Q.Təbrizinin Təbrizli və ya Gəncəli olduğu haqqında söylənilən bəzi fikirlərə belə aydınlıq gətirir: "Lakin şair Gəncəni də öz şəhəri hesab edir". Bu da çox təbiidir. Hər bir azərbaycanlı üçün Təbriz, Gəncə, Bakı, Naxçıvan və s. onun öz doğma diyarıdır [5, s. 11].

Qətran Təbrizinin yaradıcılığında vətən anlayışı yalniz bir şəhərlə məhdudlaşmır. Şair Gəncəni öz şəhəri hesab etdiyi kimi Təbrizə də dərin bağlılq hissi bəsləyir. Təbriz onun doğulduğu, dünyagörüşünün formalaşdığı və mənəvi köklərinin bağlı olduğu bir şəhərdir. Qətranın adında "Təbrizi" təxəllüsünün işlənməsi də onun bu şəhərlə kimlik baxımından bağlı olduğunu göstərir.

Şairin bir neçə şerilərində Gəncədə olduğu zaman belə həmişə Təbrizin həsrətində olduğu vurğulanır:

Mən Azərbaycana gedəcəyəm, ondan ötrü ki,
Azərbaycan padşahı məni daha yaxşı nəvaziş edir [5, s. 27].

Və yaxud Ləşkərinin sarayında könlünə Təbrizin havası düşdüyünü, vətən üçün darıxdığını və Gəncəni tərk etdiyini xatırlayır:

Təbriz xatirimə düşübdü indi,
Sanki ürəyimdə od şölələndi.
Ta ki Təbriz fikri məndə oyandı,
Canimda elə bil odlar qalandı [4, s. 65].

Bu şeirdə şairin Təbrizə, doğma vətəninə, şəhərinə olan dərin həsrəti ifadə olunur. Şair bir mədhiyyəsində zəlzələdən əvvəlki Təbrizi belə təsvir edir:

Bu varda, ya ki gözəllikdə, söylə kim görmüş,
Cahanda Təbrizə tay qeri yerdə ayrı mahal.
Zəmanə nemətə qərq etmiş əhli-şəhri bütün,

Şəhər tamam dolu insandı, vardı hər cür mal.
Əmir də, bəndə də sərkərdə, fazil, alim də,
Bir işlə hər biri məşğuldu orda bir minval [4, s.78].

Bu hissədə müəllif Təbrizin qədim dövrdə necə inkişaf etmiş və gözəl bir şəhər olduğunu təsir edir. O, burada şəhərin zənginliyini, insanların rifah içində yaşamasını, dünyada ona bənzər başqa bir yer görmədiyini bildirir. Beytlərdə Təbrizin maddi, həm də mədəni mühitinin güclü olması vurğulanır. Şairin şəhəri belə sevgi ilə təsvir etməsi vətən və məkan anlayışı ilə sıx bağlıdır. O, Təbrizi elm, mədəniyyət və gözəllik məkanı kimi göstərir, vətəni birbaşa "vətən" sözü ilə demir, sadəcə Təbriz vətən kimi təqdim olunur. Təbriz onun üçün sadəcə doğma şəhəri, yaşadığı yer deyil, həm də ruhunun bağlandığı müqəddəs bir məkandır.

Qətran Təbrizinin Gəncə haqqında yazdığı mədhiyyələrdə olduğu kimi, Təbrizə münasibətində də vətən sevgisi aydın hiss edilir. Şair hər iki şəhəri özünə yaxın hesab edir. Gəncə ona saray mühiti, elmi-ədəbi çevrə baxımından necə yaxındırsa, Təbriz onun əsas və doğma vətəni kimi qəlbində yaşayır. Bu da isə göstərir ki, Qətran Təbrizinin yaradıcılığında məkan anlayışı yalnız coğrafi məna daşımır, həmçinin mənəvi bağlılıq və kimlik hissi ilə əlaqələnir.

## *Nəticə*

Nəticə olaraq müəyyən edilmişdir ki, Qətran Təbrizi şəhər, saray və müxtəlif məkan obrazlarından istifadə etməklə yaşadığı dövrün ictimai və mədəni mənzərəsini əks etdirmişdir. Şairin yaradıcılığında Təbriz və Gəncə kimi şəhərlər elm, mədəniyyət və inkişafın simvolu kimi təqdim edilir. Bu şəhərlərin təsviri vasitəsilə müəllif həm doğma yurda sevgisini ifadə edir, həm də həmin mühitin insanların həyatındakı rolunu göstərir.

## ƏDƏBİYYAT

1. AKƏK seriyası, VII-XII əsrlər Azərbaycan şeiri. Bakı, "Elm", 1989, 424 s.
2. Azərbaycan ədəbiyyatı tarixi. VI cilddə. II cild, Bakı "Elm", 2007, 630 s.
3. Azərbaycan ədəbiyyatı tarixi. III cilddə. I cild (ən qədim dövrdən XVIII əsrin sonuna qədər). Bakı, "Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı", 1960, 590 s.
4. Ə.Səfərli, X.Yusifli. "Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər)". Bakı, "Ozan", 2008, 696 s.
5. Qətran Təbrizi. "Divan" (Fars dilindən çevirəni və çapa hazırlayan Q.Beqdeli). Bakı, Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1967, 440 s.

УДК 80

*Санубар Сабир кызы Абдинова,*
*Гюландам Аллахверди кызы Исмаилова*
*Гянджинского Отделения НАНА*

## РОДИНА И ЗЕМЛЯ В ТВОРЧЕСТВЕ КАТРАНА ТЕБРИЗИ
## *РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджанская литература, литературно-культурная среда, родина и земля, Гянджа, Тебриз

В статье исследуются понятия родины и пространства в творчестве Катрана Тебризи — выдающегося представителя азербайджанской литературы XI века, а также

особенности их художественного выражения. На основе касыд поэта показано, что понятие родины является не только географическим пространством, но и выражением духовной привязанности, чувства близости и культурной идентичности. Катран Тебризи с особой любовью относился к своему родному Тебризу и среде своего обитания, поэтически описывая красоту, процветание и культурное значение городов. В произведениях поэта особое внимание уделяется описанию таких городов, как Тебриз и Гянджа. Катран Тебризи представляет эти города как образцы красоты, развития и родной среды. Вместе с тем посредством описания пространства поэт отражал общественную и культурную жизнь своей эпохи. В результате исследования установлено, что понятия родины и пространства являются одними из важных тем творчества Катрана Тебризи. Поэт выразил свою привязанность к родной земле и представил города Гянджу и Тебриз не просто как места проживания, а как пространства, обладающие духовной ценностью.

UDC 80

*Sanubar Sabir Abdinova,*
*Gulandam Allahverdi Ismayilova*
*Ganja Branch of ANAS*

HOMELAND AND LAND ISSUES IN THE WORKS OF QATRAN TABRIZI

*SUMMARY*

*Keywords:* Azerbaijani literature, literary-cultural environment, homeland and place, Ganja, Tabriz

The article examines the concepts of homeland and place in the works of Qatran Tabrizi, one of the prominent representatives of 11th-century Azerbaijani literature, through the artistic features of their expression. Based on the poet’s qasidas, it is shown that the concept of homeland is not only a geographical location but also an expression of spiritual attachment, familiarity, and cultural identity. Qatran Tabrizi approached his native city of Tabriz and the environment in which he lived with special affection, poetically depicting the beauty, prosperity, and cultural significance of cities. Particular attention is paid in the poet’s works to the description of cities such as Tabriz and Ganja. Qatran Tabrizi presented these cities as examples of beauty, development, and native environment. At the same time, through his descriptions of places, the poet reflected the social and cultural life of his era. It is concluded that the concepts of homeland and place constitute one of the important themes of Qatran Tabrizi’s literary output. The poet expressed his attachment to his native land and portrayed the cities of Ganja and Tabriz not merely as places of residence but as spaces possessing profound spiritual value.

***Daxil oldu: 09.06.2026-cı il***